


Dünyada təbii ehtiyatların tükəndiyi bir vaxtda əhalinin ərzaq təhlükəsizliyi məsələsi daha kəskin şəkildə özünü göstərir. Söz yox ki, bu problemin həlli ilk növbədə ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin artırılması ilə bağlıdır. Belə bir şəraitdə daxili bazarın idxaldan asılılığının aradan qaldırılması üçün yerli istehsalın inkişafı önə çəkilir.



# Aqrar sektorun inkişafı üçün geniş imkanlar açılır





Bu baxımdan regionların sosial-iqtisadi inkişaf proqramlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi, fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına müsbət təsir göstərir. Xüsusilə son illər aqrar sektorun inkişafı üçün atılan addımlar, aparılan islahatlar onu deməyə əsas verir ki, yaxın zamanlarda ölkəmiz nəinki özünü ərzaqla tam təmin edəcək, eyni zamanda ixracın stimullaşdırılmasına da nail olacaq. Söz yox ki, bu işdə rayonlarda yaradılan kənd təsərrüfatı idarələrinin üzərinə böyük vəzifələr düşür. Bəs görəsən, yaradılan bu idarələr fəaliyyətini necə qurub? Onlar əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatında hansı məsələlərin həllinə daha çox üstünlük verirlər? Bu suallara cavab tapmaq məqsədilə Samux Rayon Kənd Təsərrüfatı İdarəsində olduq. Qeyd edək ki, respublikamızın digər rayonları kimi Samux Rayon Kənd Təsərrüfatı İdarəsi də bu il gözəl və yaraşıqlı binada fəaliyyətə başlayıb. Respublika Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə inşa edilmiş ikimərtəbəli bina müasir avadanlıqlarla təchiz edilib. İdarənin rəisi Rahil Həsənov ixtisasca ali təhsilli aqronomdur. Aqrar elmlər üzrə fəlsəfə doktorudur. Uzun illər rayondakı toxumçuluq təsərrüfatına rəhbərlik edib. Onunla söhbət zamanı ilk sualımız bu oldu:

*- Samux rayonu tarixi ənənələri olan kənd təsərrüfatı rayonudur. Torpaqları bərəkətli, insanları isə işgüzardır. Sizcə, bu gün həmin torpaqlardan səmərəli istifadə olunurmu?*

- Açığını deyim ki, hələ tam gücümüzlə işləmirik. Rayonda kənd təsərrüfatı məhsulları istehsalının həcmini artırmaq üçün böyük imkanlarımız var. Lakin bu gün qarşımızda duran əsas məsələ köhnə stereotiplərdən yaxa qurtarmaqla müasir texnologiyaların tətbiqinə nail olmaqdır. İnsanları başa salmalıyıq ki, bu gün daha çox və keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək üçün torpaqlardan səmərəli istifadə edilməlidir. Söz yox ki, buna qabaqcıl texnologiyaları mənimsəməklə nail olmaq mümkündür. Dövlət başçısı İlham Əliyev də bununla bağlı Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir ki, kənd təsərrüfatında çox böyük inkişaf gözlənilir. Birincisi, indi həm islahatlar aparılır, tədbirlər görülür, həm də çox ciddi elmi yanaşma var. Əminəm ki, biz yaxın zamanlarda daha da böyük nəticələr görəcəyik. Ölkə başçısının bu fikirləri səmərəli fəaliyyətimiz üçün bizə stimul verir.

Söhbət zamanı idarə rəisi bu il qazanılan uğurlardan da danışdı və dedi ki, aparılan islahatlar nəticəsində rayonda 24022 ton taxıl istehsal edilmişdir. Bundan 3582 hektarı buğda, 4565 hektarı isə arpadır. Cari ilin yazlıq əkinləri üçün 5266 hektar sahədə səpin aparılmışdır ki, bu da ötən ilkindən 1490 hektar çoxdur. Yazlıq əkinlərin 186 hektarı kartof, 703 hektarı tərəvəz, 1675 hektarı günəbaxan, 651 hektarı şəkər çuğunduru, 342 hektarı bostan bitkiləri, 434 hektarı qarğıdalı, 330 hektarı pambıq bə digər bitkilərdir. Bu il ilk dəfə olaraq 22 hektar çəltik əkilmişdir ki, həmin sahələrdən də bol məhsul gözlənilir. Rayonda mövcud olan 1088 hektar üzüm bağının 944 hektarı bar verəndir. Üzüm bağlarının 542,1 hektarı texniki üzüm sortları, 546,5 hektarı süfrə sortlarıdır. Keçən il plantasiyalardan 6614 ton məhsul toplayan bağbanlar bu il bu rəqəmi 8000 tona çatdırmağı proqnozlaşdırmışlar. Lakin təəssüflər olsun ki, rayonda həm soyuducu anbarların, həm də üzüm emalı müəssisələrinin olmaması yığılan məhsulun satışında problemlər yaradır.

Samux rayonunda meyvə və giləmeyvə istehsalına ildən-ilə maraq artır. Hazırda rayonda 1149,2 hektar bar verən meyvə bağı var. Onun 235 hektarı bu il salınmışdır. Keçən il 14423 ton məhsul istehsal edən torpaq sahibləri bu il 20 min ton məhsul olacağına əmindirlər.

Rayonda intensiv inkişaf edən sahələrdən biri də istixana əkinçiliyidir. Ümumi sahəsi 50 hektarı keçən istixanaların sahəsi hər il artmaqdadır. İstehsal olunan pomidor və xiyar əsasən Rusiya Federasiyasına ixrac olunur.

Samux rayonu tərəvəz toxumlarının istehsalı üzrə respublikada önəmli yerlərdən birini tutur. Hər il 300 hektardan artıq sahədə toxumluq tərəvəz əkinləri aparılır və 300-350 ton müxtəlif tərəvəz toxumları tədarük edilir. Bu sahənin daha da inkişaf etdirilməsi üçün yüksək kondisiyalı toxumların çeşidlənməsinə və qablaşdırılmasına ciddi yanaşılır.

Rayonda heyvandarlığın inkişafı da əkinçiliklə paralel aparılır. Hazırda rayonda 23666 baş iri və xırda buynuzlu mal-qara saxlanılır. Heyvandarlığın intensiv inkişafına ciddi yanaşılaraq onların cins tərkibinin yaxşılaşdırılmasına diqqət yetirilir. Belə ki, son beş ildə lizinq yolu ilə xarici ölkələrdən 3000 başdan artıq cins mal-qara gətirilmişdir ki, bu da süd istehsalında əsaslı dönüş yaratmışdır. Belə ki, cari ilin 6 ayında süd istehsalı 4037 ton artaraq 12 min 429 tona çatmışdır. Ət istehsalında da əsaslı dönüş yaranmışdır. Son 6 ayda diri çəkidə 2645 ton ət tədarük olunmuşdur. Heyvandarlığın inkişaf tempini saxlamaq üçün rayonda yem istehsalına ciddi diqqət yetirilir. Bu məqsədlə indiyədək 41 min ton ot, 7 min tondan artıq küləş tədarük edilmişdir.

Qazanılan uğurları diqqətə çatdıran Rahil Həsənov onu da əlavə etdi ki, rayon kənd təsərrüfatı idarəsi təkcə əhalinin istehsal etdiyi məhsulların qeydiyyatı ilə məşğul deyil. Əsas fəaliyyətimiz ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində dövlətin qarşıya qoyduğu vəzifələri uğurla icra etməkdən ibarətdir. Bu tapşırıqların uğurla icrası məqsədilə idarədə 2016-2020-ci illər üçün perspektiv inkişaf proqramı tərtib edilmişdir. Həmin proqrama əsasən rayonda taxılçılıq, üzümçülük, pambıqçılıq, tərəvəzçilik, toxumçuluq, meyvəçilik, maldarlıq, qoyunçuluq, quşçuluq, nohur balıqçılığı, arıçılıq, baramaçılıq, hətta heyvandarlığın inkişafı təmin ediləcək. Məsələn, nəzərdə tutulmuşdur ki, 2020-ci ildə taxıl sahələrinin həcmi 10 min hektara çatdırılmaqla hər hektardan 40 sentner məhsul götürülsün. Kənd təsərrüfatı kooperasiyalarının yaradılması təmin edilməklə, yüksək reproduksiyalı, məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, rayonun torpaq-iqlim şəraiti üçün daha uyğun olan buğda sortları toxumunun yetişdirilməsi təmin edilsin. Mövcud üzüm bağlarının həcmini 2000 hektara, məhsul istehsalını isə 20 min tona çatdırmaq, dövlətin pambıqçılığın inkişafı ilə əlaqədar qərarlarının icrasını təmin etmək məqsədilə 1000 hektar sahədə yüksək keyfiyyətli pambıq yetişdirməklə hər il rayonda 3000 ton pambıq istehsalına nail olunması nəzərdə tutulmuşdur. Digər sahələrdə də yüksək məhsuldarlığın əldə edilməsi diqqət mərkəzində olacaq. Bundan başqa, hazırda daha 10 min hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilməsi üçün hazırlıq işlərinə başlanılmışdır.

Rayonda 25 min hektar əkinə yararlı torpaq sahəsi var ki, onun da 20 min hektarı istifadə olunur. Bu il 5 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Rayonda demək olar su problemi yoxdur. Bütün əkin sahələri müxtəlif mənbələrdən, 503 ədəd subartezian quyusundan, 25 ədəd nasos stansiyasından istifadə edilməklə suvarılır. Əkin sahələrinin suvarılması üçün uzunluğu 726,5 kilometr olan təsərrüfatdaxili və təsərrüfatlararası kanallardan istifadə edilir. Rayonda müasir texnologiyalarla suvarmaya böyük diqqət yetirilir. Xüsusilə müasir suvarma qurğularının tətbiqi həm sudan qənaətlə istifadə edilməsinə, həm də əl əməyinin yüngülləşdirilməsinə imkan yaradır.

Prezident İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin aradan qaldırılması məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri taxılçılıq təsərrüfatının yaradılması məqsədilə "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət üçün 5000 hektar torpaq ayrılmış, təsərrüfatın idarə olunması üçün lazım olan maşın və mexanizmlər gətirilmişdir. Təsərrüfata 13 kilometr əsas su xətti çəkilmiş, bir neçə yardımçı bina tikilmişdir.

Dövlət başçısının ölkədə pambıqçılığın, tütünçülüyün və baramaçılığın inkişafına dair tapşırığına uyğun olaraq "Qarabağ region" MMC Qırmızı Samux qəsəbəsində 300 hektar sahədə pambıq səpmiş, bitkinin suvarılması üçün müasir qurğular quraşdırılmışdır. Bundan başqa, Sarıqamış kəndi ərazisində iribuynuzlu mal-qara üçün nəzərdə tutulmuş heyvandarlıq kompleksində işlər sürətlə davam etdirilir. Bu yaxınlarda komplekse ilkin olaraq 3000 başdan çox heyvan gətirilmişdir.

Rayona investisiya qoyuluşuna cəlb olunmuş "Ulduz-2011" MMC-yə Ceyrançöl və Bozdağ massivindən 2010 hektar torpaq sahəsi ayrılmışdır. Həmin torpaqlardan 1100 hektarında taxıl, 500 hektarında isə intensiv üsulla kartof əkilməsi nəzərdə tutulmuşdur. Bununla da təsərrüfatda 104 nəfər daimi işlə təmin olunmuşdur.

Hazırda rayonda torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə kooperasiyaların yaradılması üçün maarifləndirmə işlərinə başlanılmışdır. Tez-tez keçirilən görüşlərdə diqqətə çatdırılır ki, kooperasiyaların yaradılması bir çox məsələlərin həlli üçün imkanlar açacaqdır. İlk öncə suvarmadan və texnologiyalardan səmərəli istifadə olunacaq, xəstəlik və ziyanvericilərə qarşı mübarizədə, eləcə də texnikalardan istifadədə səmərəlilik təmin ediləcəkdir. Bundan başqa, yetişdirilmiş məhsulun satış imkanları da genişlənəcək. Belə ki, kooperasiyalar məhsul üçün ayrıca bazar tapmaqla alıcıları daha çox etibarlı kənd təsərrüfatı məhsulları ilə təmin edəcək. Hazırda rayonun Qarayeri qəsəbəsində və Sərkar kəndində kooperasiyaların yaradılması məqsədilə hazırlıq işlərinə başlanılmışdır.

Söhbət zamanı Rahil Həsənov onu da bildirdi ki, yüksək məhsuldarlıq torpaqdan, toxumun keyfiyyətindən, ziyanvericilərə qarşı vaxtında aparılan mübarizədən asılıdır. Respublika Kənd Təsərrüfatı Nazirliyi bu məsələlərin həllində, demək olar ki, idarəyə hər cür dəstək verir. Ölkə başçısının aqrar sahənin inkişaf etdirilməsi istiqamətində verdiyi tapşırıq və tövsiyələri əldə rəhbər tutan Samux Rayon Kənd Təsərrüfatı İdarəsi çalışacaqdır ki, öhdəsinə düşən vəzifələri uğurla icra etsin.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***